UOT 94

NURU MƏMMƏDOV
Bakı Dövlət Universitetinin
Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının professoru,
tarix elmləri doktoru
TarixVeOnunProblemleri@gmail.com

Faşizm üzərində qələbənin 80 illiyi qarşısında

MÜHARİBƏNİ KİM BAŞLADI, HİTLER YOXSA STALİN
(Sirlər açılır, yeni faktlarla tarixi həqiqət məlum olur)

DOI: https://doi.org/10.36719/2708-065X/109/72-78

Məqalədə İkinci dünya müharibəsinin və Böyük Vətən müharibəsinin başlanmasının səbəbləri yeni rəsmi sənədlərlə obyektiv izah edilir və araşdırılır. Konkret faktlarla və rəsmi sənədlərlə qeyd edilir ki, müharibəni başlayan nasistlərdir, faşist Almaniyasıdır. müharibə ərəfəsində, 30-cu illərdə beynəlxalq vəziyyətin mürəkkəb olduğu bir vaxtda Hitlerin hakimiyyət başına gətirilməsi, ABŞ və İngiltərə tərəfindən ona küllü miqdarda maliyyə yardımlarının edilməsi Almaniyada sürətli hərbiləşdirmə proqramının həyata keçirilməsinə və beləliklə də güclü hərbi sənaye komplekslərinin yaradılmasına əlverişli şərait yaratdı. Hitlerin təkəbbürlü iddiaları müharibəni qaçılmaz etdi. Hətta faşizmə qarşı kollektiv təhlükəsizlik sisteminin yaradılması haqqında SSRİ-nin sülhsevər təklifləri rədd edildi. Beləliklə, araşdırmalar və təhlillər, xüsusilə rəsmi sənədlər sübut edir ki, müharibəni başlayan Hitler Almaniyasıdır.

Açar sözlər: Almaniya, Hitler, Stalin, müharibə, nasistlər, faşizm, müqavilə, rəsmi sənədlər.

Giriş. Dünyanın ən böyük siyasətçisi və uzaqgörən diplomatı, görkəmli dövlət xadimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir: "İkinci dünya müharibəsi məhz alman faşizminin, Hitler ordusunun dünyaya hakim olmaq iddiası ilə başlandı... İtaliyada və Almaniyada meydana çıxmış faşizm təkcə həmin ölkələrin xalqlarının deyil, bütün bəşəriyyətin həyatını böyük təhlükəyə qoydu" (1, s.15). ***2194*** gün davam edən İkinci Dünya müharibəsi 1939-cu il sentyabrın 1-də alman-faşist ordularının Polşaya hücumu ilə başlandı, az sonra Fransa və İngiltərənin müharibəyə qoşulması ilə genişləndi, qısa müddətdə müharibənin əhatə coğrafiyası planetin digər ölkələrinə yayıldı.

İkinci Dünya müharibəsinin səbəblərini tarixi faktlarla və tarixi sənədlərlə izah edən RF-nin Prezidenti ***V.V.Putin*** MDB ölkələrinin başçılarının 2020-ci il fevralın 15-də toplanan geniş formatda olan iclasda ətraflı şərh etmişdir. ***Prezident Putin*** demişdir ki, 2019-cu il sentyabrın 19-da Avropa İttifaqı "О важности сохранения исторической памяти для будущего Европы» adlı qərar qəbul etmişdir (18). Bu qərarda deyilir ki, SSRİ və Almaniya öz aralarında Avropanı nüfuz dairələrinə bölmək haqqında razılığa gəliblər. Bu da İkinci Dünya müharibəsinin başlanmasına səbəb olub. Ancaq onlar səhv edir. V.V.Putin qeyd etdi ki, İkinci Dünya müharibəsinə gedən yol aşağıdakılardır: 1) Versal müqaviləsinin soyğunçu şərtləri: bu şərtlər Almaniyanı müstəmləkələrdən məhrum edir, əraziləri parçalanır və əlindən alınırdı. Bu da alman xalqında qisasçılıq ruhunun gələcəkdə baş qaldırmasına səbəb oldu, 2) Hitler Reyn bölgəsini özünə birləşdirdi, 3) Avstriyanı anşülüs etdi, 4) Çexoslovakiyanın əvvəl bir hissəsini, sonra hamısını işğal etdi, 5) Polşanı açıq-aydın zəbt etdi. bütün bunlara isə dünya susdu. Yeganə olaraq SSRİ etiraz etdi. Hətta sovet hökuməti faşizm əleyhinə kollektiv təhlükəsizlik sisteminin yaradılması təklifi ilə dünyaya müraciət etdi. Heç bir dövlət bu sülh və əməkdaşlıq təklifinə qoşulmadı. Hətta Hitler Çexoslovakiyanı və Polşanı zəbt etmək ərəfəsində sovet hökuməti həmin ölkələrə kömək etmək istədi. Ancaq Çexoslovakiya və Polşa rəhbərləri SSRİ-nin təklifini rədd etdilər.

1936-cı ildə Almaniya ilə Yaponiya arasında "antikomintern müqaviləsi" imzalandı. Bir ildən sonra İtaliya da ona qoşuldu. Bununla da dünyanı müharibə ilə hədələyən Berlin-Roma-Tokio üçbu-

cağı formalaşdı. Bu təcavüzkar bloka alternativ olan ABŞ-Fransa-İngiltərə yaxınlaşması reallaşdı. Həmin ölkələr yenə də SSRİ ilə yaxınlaşmaq istəmirdilər. Çünki bolşevik ideologiyasına açıq-açığına nifrət edirdilər. Hətta Hitler Almaniyası tərəfindən Çexoslovakiya və Polşaya hücum təhlükəsi olanda Sovet hökuməti onların müdafiəsinə qalxmaq istədi, ancaq həmin ölkələrin rəhbərləri də sovetlərin köməyini rədd etdilər. Əslində SSRİ beynəlxalq aləmdə tək qalmışdı.

Beynəlxalq vəziyyətin belə mürəkkəb vaxtında Sovet dövləti kollektiv təhlükəsizliyi təmin etmək və təcavüzkarları dəf etmək məqsədi ilə yeni-yeni səylər göstərir, faşist təcavüzünün yayılmasına mane olmaq və yeni dünya müharibəsinə yol verməmək üçün kollektiv təhlükəsizlik tədbirlərində iştirak etməyə hazır olduğu haqqında bəyanat verdi. SSRİ hökumətinin Millətlər Cəmiyyətində və ya ondan kənarda elan etdiyi bəyanatda deyilirdi: ”sabah bəlkə də gec olar, lakin əgər bütün dövlətlər, xüsusilə böyük dövlətlər sülhü kollektiv surətdə xilas etmək mövqeyi tutsalar...” (9, s.474, 497) bəlkə də müharibə təhlükəsinin qarşısı alınardı. Təəssüf ki, heç bir dövlət SSRİ-nin sülhsevər təklifinə qoşulmadı.

Putin çıxışında arxiv sənədləri əsasında onu da qeyd etdi ki, Avropa ölkələri Almaniyaya on min tonlarla qızıl dəyərində kömək edirdilər. Putin rəsmi sənəd əsasında dedi ki, Fransanın baş naziri Daladye SSRİ xarici işlər naziri Litvinova 1938-ci ildə göndərdiyi 5№ -li sənəddə bildirdi ki, Fransa SSRİ ilə müqavilə bağlamaq istəmir. 1938-ci ilin sentyabr-oktyabr aylarında Litvinov Millətlər Cəmiyyətindəki çıxışında demişdi ki, Almaniyanın təcavüzkar hərəkətlərini dayandırmaq lazımdır (18). Bu təklifə heç bir dövlət cavab vermədi. Biabırçı Münhen sazişinin imzalanması birbaşa İkinci Dünya müharibəsinə başlamaq demək idi. SSRİ-nin bütün sülhsevər tədbirlərini və təkliflərini Avropa və dünya dövlətləri rədd etdi. dünyanın susqunluğu isə Hitlerin əl-qolunu açırdı və beləliklə, Avropada müharibə alovları genişlənirdi. Prezident Putin 1937-1939-cu illərin beynəlxalq vəziyyətini dəqiq və obyektiv izah edir və aydın olur ki, müharibəni başlayan məhz Almaniyadır.

Daha aydın olsun deyə Almaniyanın tarixi şəraitini qısa da olsa araşdıraq: Almaniya Birinci dünya müharibəsində 2 milyon nəfər itirdi. Versal müqaviləsi ilə Almaniya tamamilə müflisləşdi, torpaqlarını itirdi. Elzas-Lotorengiya Fransaya verildi, digər əraziləri Avropa ölkələri arasında bölüşdürüldü. Hətta Almaniya təqsirkar qismində qalib ölkələrə 260 milyard marka borc verməli idi. Bu, 100 min ton qızıl demək idi (19). Versal müqaviləsini imzalayan 29 dövlətin siyasətçiləri deyirdilər ki, Versal şərtlərinə görə tarixdə “Almaniyanın varlığına son qoyuldu”.

Versal müqaviləsinin şərtləri Almaniyada qısasçılığın başlanğıcını qoydu. Müqavilədən az sonra xarici ölkələr Almaniyanın iqtisadiyyatını bərpa etmək üçün küllü miqdarda borc kredit verdilər. 1921-ci ildə xarici bankirlər Almaniyaya 269 milyard marka qızıl pul verdilər. Bu, təqribən 96 min ton qızıl demək idi (20). Sonrakı illərdə də Almaniyaya xeyli borclar verirdilər. Ancaq 1931-ci ildə Hitler həmin borcların qaytarılmasından imtina etdi. 1933-cü ildə Hitler hakimiyyətə gələn kimi sürətlə hərbiləşdirmə proqramını genişləndirdi və qısasçılıq əhval-ruhiyyəsini geniş təbliğat vasitəsilə gücləndirdi. Hitlerin böyük iddiaları İkinci Dünya müharibəsinin başlanmasına səbəb oldu.

Versal müqaviləsinin şərtləri kimi Brest-Litovsk sülhünün şərtləri də soyğunçu idi. Bəs Rusiyaya kim kömək etdi? Heç kim.

Hitler hakimiyyətə gələn kimi marksizmə və bolşeviklərə qarşı müharibə elan etdi. Kommunist partiyasının fəaliyyəti qadağan edildi, insan azadlıqları sıxışdırıldı. Avropanın mərkəzində müharibə ocağı yarandı. Versal şərtləri ləğv edildi, açıq-aşkar müharibə təbliğatı aparılırdı. Almaniyanı Sovet İttifaqına hücum etməyə sövq edən İngiltərə və Fransa onunla müqavilələr bağladı. SSRİ ilə danışıqlar aparan İngiltərə və Fransa bildirirdilər ki, onunla (yəni SSRİ ilə) hər hansı müqavilə bağlamaqdan imtina edirlər. Digər tərəfdən Almaniyaya dəstək verirdilər. Hitler yaranmış şəraitdən istifadə edərək Avstriyanı anşülüs edəndən sonra elan etdi ki, Çexoslovakiyanın Sudet vilayətində 3 milyon nəfər etnik alman yaşayır (19), onları Almaniyaya birləşdirmək lazımdır. İngiltərə, Fransa, İtaliya və Almaniyanın imzaladıqları Münhen sazişi ilə çex xalqına xəyanət edildi və Sudet vilayəti Almaniyaya verildi. Ancaq Hitler vədini yenə pozdu və az sonra bütün Çexoslovakiyanı akula kimi uddu. Dünya isə susurdu. Yeganə olaraq SSRİ etiraz etdi.

Nürinberq məhkəməsində sual verildi ki, Münhen sazişi zamanı beynəlxalq qüvvələr Çexoslovakiyanı müdafiə etdilər? Feldmarşal Keytel dedi ki, yox (18). SSRİ-nin isə antihitler koalisiyası yaratmaq təklifini rədd etdilər.

İngiltərə və Fransa Sovet İttifaqı ilə müqavilə bağlamaqdan imtina edəndən sonra gözlənilmədən Hitlerdən təklif gəldi. Xarici işlər naziri F.Ribbentrop Moskvaya gəldi və Hitlerin məktubunu Stalinə təqdim etdi. Belə bir mürəkkəb tarixi şəraitdə Stalin nə etməli idi? Beləliklə, 1939-cu il avqustun 23-də bir-birinə hücum etməmək haqqında 10 il müddətinə müqavilə imzalandı. Müqaviləni Xarici İşlər nazirliyinin binasında Molotovla F Ribbentrop imzaladılar. İmzalanma mərasimində Stalin iştirak etmişdi (18). Müqavilənin imzalanmasına baxmayaraq beynəlxalq vəziyyət mürəkkəb olaraq qalırdı, müqaviləyə inam az idi.

1940-cı ilin noyabrında Hitler rəsmi olaraq Stalinə məktub göndərdi(18). Məktubda Hitler Stalinə pakta (Almaniya-Yaponiya-İtaliya) qoşulmağı təklif edir və Molotovu Berlinə dəvət edirdi. Stalin məktuba görə Hitlerə təşəkkürünü bildirir və nazir Molotovun Berlinə getməsinə icazə verir. Ancaq Molotova konkret tapşırıqlar verir və qəti tapşırır ki, pakta qoşulmağa razılıq verməsin. Berlində Molotovu yüksək səviyyədə qarşılayırlar. Əvvəl Ribbentrop, sonra isə Hitlerlə görüşür. Moskvaya qayıdan Molotov Stalinə məlumat verir ki, Almaniya qarşıdakı müharibəyə ciddi hazırlaşır, müharibə qaçılmazdır (19).

Doğrudan da, az sonra Hitler 1940-cı ilin dekabrın 18-də 21№-li gizli "Barbarossa" planını imzalayır. Bu isə SSRİ-yə qarşı müharibə demək idi.

Hitler 1040-cı ilin yayında demişdi ki, biz Rusiyanı beş ay müddətinə işğal edəcəyik, bütün Rusiyanı ələ keçirəcəyik. "Barbarossa"nı imzalayan gün Hitler demişdi: "təbiət qəddardır. Biz də rusları qəddarcasına məhv etməliyik". 1940-ci il iyunun 20-də alman-faşist ordularının Baş ştab rəisi feldmarşal Fon Bok lovğalanaraq demişdi ki, 6 həftə ərzində Rusiyanı məğlub edəcəyik (18).

Beləliklə, tarixi sənədlər, arxiv sənədləri, mövcud beynəlxalq vəziyyətin konkret təhlili bir daha onu göstərir və təsdiq edir ki, İkinci dünya müharibəsini başlayan SSRİ yox, məhz Hitler nasizmidir, faşist Almaniyasıdır.

Bəli, İkinci Dünya müharibəsini məhz nasizm, faşist Almaniyası başladı, Hitlerin dünya ağalığı iddiası ilə başladı və bəşəriyyətə 60 milyondan çox ölüm faciəsi ilə başa çatdı. Müharibənin ağırlığı sovet xalqları üzərinə düşdü, o cümlədən Azərbaycan xalqı çox ağır itkilər verdi. Sovet xalqı təqribən 28 milyon, Azərbaycan xalqı isə 400 min nəfər itki verdi.

Hitlerin ali irq iddialarından və bütün dünyanın ağası olması təhlükəsindən qorxuya düşən Çörçill, Ruzvelt və Trumen Sovet Qızıl ordusuna çox güvənirdilər. Tarixi görüşündə Prezident Putin demişdi ki, Çörçill, Ruzvelt və Trumen müharibənin qələbə ilə başa çatması ilə əlaqədar olaraq çıxışlarında dəfələrlə demişdilər ki, bəşəriyyət Qızıl Orduya minnətdar olmalıdır. Stalinqrad vuruşmasında tarixi qələbə münasibətilə Çörçill VI Kral adından Stalinə dəstəyi brilyant qaşlarla bəzədilmiş qılınc təqdim etmişdi (18). Bu, böyük mənəvi dəstək idi.

Bəzi Qərb tarixçiləri yazırlar ki, müharibəni Stalin başladı və günahkar da odur. Ancaq bir tədqiqatçı alim kimi deyə bilərəm ki, bu tezis kökündən səhvdir və onun heç bir elmi əsası yoxdur. Gəlin tarixi sənədlərə və baş verən hadisələrə diqqət verək.

İkinci Dünya müharibəsi ərəfəsində faşist-alman orduları Avropanın 12 dövlətini işğal etmişdi: Avstriya, Çexoslovakiya, Danimarka, Polşa, Norveç, Belçika, Hollandiya, Lüksemburq, Fransa, Yuqoslaviya və Yunanıstan. Bundan başqa 5 dövlət də Almaniyanın tərəfindən çıxış edirdilər: İtaliya, Rumıniya, Macarıstan, Finlandiya və Bolqarıstan. (14, s.4) Növbəti hədəf Sovet İttifaqı idi. Bu faktlar onu göstərir ki, dünyanın iri dövlətlərinin gözü qarşısında Hitler açıq-aydın işğal siyasəti aparır və ölkənin hərbiləşdirmə proqramını sürətlə genişləndirirdi. Artıq 1941-ci ilin ortalarında Almaniyanın 214 diviziyası, bu diviziyaların şəxsi heyəti 7,3 milyon nəfər, 10,1 min döyüş təyyarəsi (14, s.7) və küllü miqdarda döyüş silah-sursatı var idi.

Dünyaya hakim olmaq iddiası ilə çıxış edən və qürrələnən Hitler Avropada apardığı qalibiyyətli müharibələr təcrübəsinə yiyələnən faşist ordularına rəğmən SSRİ üzərinə hücum etmək və işğal etmək planlarını həyata keçirməyə başladı. Və məlum olduğu kimi 1941-ci il iyunun 21-dən 22-nı keçən gecə saat 4 radələrində nəhəng hərbi texnika və canlı qüvvə ilə hücuma keçdi.

Hücum ərəfəsində Stalinə verilən gizli məlumatların heç birinə o, inanmırdı. İyunun 18-də Almaniya və İtaliyanın Moskvada olan səfir və əməkdaşları Moskvanı tərk etdi. Ardınca Böyük Britaniyanın da nümayəndələri Moskvadan çıxdılar. Stalin yenə nəticə çıxarmağa tələsmədi. İyunun 21-də Molotov çalışdı ki, Almaniya rəhbərliyi ilə əlaqə yaratsın. Saat 21^{00}-da Molotov Almaniyanın Mosk-

vadakı səfiri Şullenberqi Kremlə dəvət etdi ki, son günlərdə baş verənlərə aydınlıq gətirsin. Səfir bu dəvəti rədd etdi. Həmin gün SSRİ xarici İşlər nazirinin müavini Dekanozov Berlində Pibbentropla görüşmək, nota vermək istədi. lakin dedilər ki, Ribbentrop yoxdur (17, s.53, 159). Bütün bunlar həyəcan siqnalı idi.

A.Hitler hələ 1924-1925-ci illərdə Landsberq həbsxanasında ***"Mayn kampf***" ***("Mənim mübarizəm")*** adlı kitabında yazırdı ki, Almaniyanın vəzifəsi Şərqə və Cənuba doğru hərəkət etməklə yeni torpaqlar ələ keçirmək, yeni-yeni ərazilər tutmaq, Rusiyanı bolşeviklərdən tamamilə təmizləmək və alman ağalığını Rusiyada bərqərar etməkdir. Bu vəzifələri həyata keçirmək üçün güclü silah lazımdır. Hitler çıxışlarında açıq-aydın demişdi: "Sovet İttifaqı ilə mübarizədə biz öz proqramımızı həyata keçirəcəyik. Amerikanı izolyasiya edəcəyik. Biz Stalin kommunizmini məhv edəcəyik. Biz bütün Avropanı və Vatikanı Rusiyaya qarşı səlib yürüşünə çağırırıq. Biz Şərqi kaloniyaya çevirəcəyik" (15, s.29).

Hitler bütün dünyanı işğal etmək istəyirdi. Polşa üzərinə hücuma keçərkən Hitler hələ müharibəyə tam hazır deyildi. Nasistlər bu barədə susurdular və belə düşünürdülər ki, İngiltərə və Fransa müqaviləyə əsasən Almaniyaya qarşı müharibəyə başlaya bilməzlər. Belə iri miqyaslı müharibəyə təbii ki, hitlerçilər hələ hazır deyildilər. 3 həftə ərzində Almaniyanın aviabombaları tükəndi, 6 həftə ərzində isə Fransanı darmadağın etdikdən sonra almanların hərbi silahı sona yaxınlaşırdı. Polşa ilə müharibəyə tam hazır olsa da, Hitler uzunmüddətli müharibəyə hələ ki, hazır deyildi. Ancaq onun əsas məqsədi İngiltərə, Fransa və ABŞ-ı siyasi səhnədən silmək idi (16, s.41). Bunun üçün Hitlerə güclü hərbi-dəniz donanması yaratmaq lazım idi. Buna isə böyük maliyyə kapitalı lazım idi. Belə maliyyə yardımını bəs kimlər etdi? Əlbəttə, ABŞ və Böyük Britaniya bankirləri, habelə İsveçrə bankirləri. xaricdən bol-bol maliyyə yardımları alan alman akulaları ən müasir silah zavodları yaradır, sürətlə silahlanma sənayesini həyata keçirirdilər.

Nurinberq məhkəməsində Almaniyanın iqtisadiyyat naziri Yalmar Şaxta belə demişdi: "Deməliyəm ki, Almaniya silahlananda heç bir başqa ölkə bizə mane olmadı. Versal müqaviləsinin şərtlərini biz pozanda beynəlxalq ölkələr bunu sakitliklə qarşıladılar. Bizə xarici banklar çoxlu maliyyə yardımı edirdilər. Hətta bizdə aparılan silahlanmanı ölkəmizə gələn hərbi missiya müşahidə etsə də, ona göz yumdu" (16, s.27).

U.Çörçill öz memuarında yazmışdı: "Rusiyaya hücum etməyə hazırlaşmaq üçün alman hərbi qüvvələri təyyarə istehsalını artırırdılar. Biz arxayın olduq ki, daha bizim adaya havadan hücum olmayacaq..." (16, s.26). Buna görə də bolşevizmi məhv etmək üçün ingilis kapitalistləri Hitlerə bol-bol vədlər verir, güclü kapital potensialı ötürürdülər. Tarixçilərin və mənbələrin məlumatlarından aydın olur ki, Hitlerə milyonları ötürən xarici kapitalistlər, Avropanın milyonçu bankirləri, nasional-sosialistlər və b. idi (16, s.28). Belə böyük maliyyə vəsaitlərini ələ keçirən alman kapitalistləri sürətlə silahlanma proqramını həyata keçirirdilər.

Tarixi sənədlər sübut etdi ki, Böyük Britaniya, Fransa və ABŞ çalışırdılar ki, Hitler Almaniyada hakimiyyət başına gəlsin. Sovet ittifaqına qarşı Almaniyanı istiqamətləndirmək onların siyasi məqsədi idi. Çörçill öz memuarında yazırdı ki, Stalinlə razılaşmaq üçün Şərqi Avropada hansı təsirə malik olsun. Bu, mümkün deyil Hətta Çörçill Yunanıstana soxulanda Moskvadan kömək ala bilmədiyi üçün geri çəkildi (16, s.29). Niyə? çünki ingilis ideologiyası ilə Moskva ideologiyası uyğun gəlmirdi. Hələ 20-ci illərin əvvəlində Almaniyanın təbliğat naziri Yozef Gebbels yazırdı ki, "... biz yaxın gələcəkdə ölsək də hakimiyyətə gəlməliyik" (16, s.29). Həqiqətən də elə oldu. nasional-sosialistlər hakimiyyətə gəldi, Hitler dövlət başçısı oldu, az sonra Versal şərtlərini birtərəfli qaydada pozdu, bitərəf zona olan Reyn sahilinə qoşun yeritdi, Avstriyanı anşülüs etdi, Münhen sövdələşməsinə nail oldu, sonra bütün Çexoslovakiyanı zəbt etdi, Avropanı və dünyanı müharibə ilə hədələməyə başladı. 1935-ci il matrın 16-da Hitlerin təbliğat naziri Y.Göbbels rəsmi olaraq elan etdi ki, Almaniya Versal müqaviləsini şərtlərini tanımır. Yəni 100 min nəfərlik ordudan artıq olmaz şərtindən imtina etdi. Həmin vaxt Almaniyanın 36 diviziyası (500 min nəfər) var idi (10, s.25).

Hitlerin belə geniş miqyasda müharibə siyasəti dünyanın gözü qarşısında baş verirdi. dünya dövlətləri isə ona mane olmaq əvəzinə, əksinə bol-bol maliyyə yardımları edirdilər. Hitler yaxşı bilirdi ki, iki cəbhədə müharibə aparmaq çətindir. Bu məqsədlə də Hitler Qərb ölkələrini susdurmaq və ya bitərəf saxlamaq diplomatiyasından çıxış edərək Fransanı diz çökdürdü, Böyük Britaniyanı ada kimi mühasirədə saxladı, ABŞ-la danışıqlara üstünlük verdi. Bu məsələləri German Rauşinq "Danışır

Hitler" adlı kitabında yazır: "Əgər SSRİ və ABŞ birləşsə, onda mənim üçün son olacaq". Ancaq Hitler ümid edirdi ki, "bu birləşmə heç vaxt olmayacaq" (16, s.27).

Bəs Hitleri kim məcbur etdi ki, SSRİ-yə hücum etsin? Əslində Üçüncü Reyxin bir çox generalları da bu hücumun əleyhinə idi. O cümlədən Hitlerin yaxın adamı, xarici işlər naziri İoaxim fon Ribbontrop da. O, Nürenberq məhkəməsində demişdi: "Rusiya ingilislərin potensial müttəfiqi deyil. İngiltərə Rusiyadan yaxşı heç nə gözləmir. Almaniyanın Rusiyaya hücumu İngiltərəyə yeni mənəvi stimul verəcək və İngiltərə məhv olmaqdan xilas olacaq. Az sonra biz başa düşdük ki, bu müharibə uzanacaq..." (16, 27).

Tarixçilər yazırlar ki, bəs Hitler niyə belə səhvə yol verdi, nə üçün SSRİ-yə hücum etdi? İtaliyanın xarici işlər naziri Qaleaççço Çiano memuarında belə yazacaq: (Çiano Mussolinin qızını almış və "ailəyə daxil olmuşdu"). "Bir çox əlamətlərinə görə Rusiyaya qarşı müharibə çox yaxındır. Bolşevizmin darmadağın edilməsi vacib olsa da, bu, bəşəriyyət tarixində faciələrə səbəb olacaqdır". Bu deyilənlər səbəbsiz deyildi (16, s.29). Ona görə ki, Hitler çox gizli saxlanılan 1940-cı il dekabrın 18-də "21 nömrəli Direktiv" imzaladı. Bu, "Barbarossa" planı idi. Bu plana görə Sovet İttifaqına hücum 1941-ci il iyun ayının 20-si seçildi. Gizli saxlanılan planın "parol"u "Dortmund" idi. Ancaq gizli şifroqramda "Parol "Dortmund-22 iyun" hücum günü seçilmişdi (15, s.463).

İldırım sürətli müharibə planına əsaslanan bu plana görə Hitler lovğalanaraq demişdi ki, (29 iyunda) 4 həftədən sonra Moskvanı tutacağıq, ancaq sonra demişdi ki, 15 avqustda tutacağıq, bütün müharibə oktyabrın 1-də Şərqdə tamamilə başa çatacaq. Hitler asanlıqla qələbə çalacağını belə əsaslandırırdı və bilirdi ki. 1937-1938-ci illərin amansız repressiyaları zamanı Stalinin göstərişi ilə çoxlu hərbi zabitlər və generallar güllələnmiş, sövt ordusunda mütəxəssis hərbçi sərkərdələr və komandirlər məhv edilmişdi. Bu, doğrudan da belə idi. Faktlara diqqət verək: 1938-ci ildə 10 min hərbçi zabit güllələnmişdi, o cümlədən 5 marşaldan 3-ü, 15 ordu komandiri, 63 korpus komandiri, 30 korpus komissarı, 151 diviziya komandiri, 85 diviziya komissarı, 243 briqada komandiri, 143 briqada komissarı, 318 polk komandiri, 163 polk komissarı güllələnmişdi (13, s.162).1937-ci ilin fevralından 1938-ci ilin oktyabrına qədər 44.447 nəfər zabit mühakimə olundu, onlardan 38.995 nəfəri məhkəməsiz güllələndi (13, s.164). 1937-1938-ci illərdə 40 min nəfər komandir, 600 nəfər yüksək rütbəli general, marşal, polkovnik, o cümlədən 3 marşal (Tuxaçevski, Yakir, Uboroviç) güllələndi, 36,5 min nəfər ordu sıralarından istefaya göndərildi. Bu amansız faciələrə münasibət bildirən marşal A.M.Vasilyevski yazıçı Konstantin Simonovla görüşü zamanı demişdi: "Siz deyirsiniz ki, 37-ci il olmasaydı, 1941-ci il məğlubiyyəti də olmazdı. Ancaq mən daha dəqiq deyərdim: 37-ci il olmasaydı, bəlkə heç 41-ci il müharibəsi də olmazdı". Hitler bilirdi ki, ölkəmizdə hərbi komandirlərə necə divan tutuldu..." (21, s.265-268). Hitler düşünürdü ki, sovet ordusu komandirsiz qalıb.

Dünya tarixçiləri bilsin deyə faktlara müraciət edək: Hitler ölkədə siyasi partiyaların mövqeyindən asılı olaraq özünün istedadlı, təşkilatçılığı və pafoslu təbliğatçıları ilə öz opponentlərinə qalib gəldi. Burada təəccüblü heç nə yoxdur. Məgər Lenin öz tərəfdarları ilə hakimiyyətə bu cür gəlmədilər. Axı, Avropa və Rusiya tarixçiləri yaxşı bilirdilər ki, XX əsrin əvvəllərindən geniş inqilabi fəaliyyətə başlayan Lenin 300 illik Romanovlar səltənətini yıxa bildi, hakimiyyəti ələ keçirdi və "ədalətli sosializm cəmiyyəti yaratmaq" istiqamətində bolşevik-kommunist hakimiyyətinə yiyələndilər. Elə də Hitler hakimiyyəti ələ keçirmək üçün özünün nasist partiyasını hakimiyyətə gətirdi. Nasist partiyası seçkilərdə 1918-ci ildə 18,3 faizdən 1933-cü ildə 37,9 faizə çatdı. Almaniya Demokratik partiyası isə (belə deyək ki, sosialist-kommunistlər)18, 6 faizdən 0,8 faizə düşdü (16, s.29).

A.Hitler 1933-cü il yanvarın 30-da reyxskansler kimi and içdi. Hitlerin partiyası reyxstaqa seçkilərdə 50,1 faiz üstünlüklə qələbə çaldı. 1932-ci il 31 iyul seçkilərində Hitlerə 13.745.800 nəfər alman xalqı səs verdi. Hətta sosial-demokratlar da Hitlerə inanmağa başladılar. Alman sosial-demokratları sanki nasist partiyasına sadiqliyini bildirdi. Belə ki, 1933-cü il 30 yanvarda andiçmənin səhəri günü sosial-demokrat partiyası özünün orqanı olan "Forverts" qəzetində Hitlerə müraciət edərək yazırdı: "... Bizim çoxsaylı fəhlələr Sizə inanır. Bizim sayəmizdə Siz reyxkanser oldunuz" (16, s.31). Beləliklə, nasist partiyası siyasi səhnədə tam üstünlüyü ələ aldı və bütün hakimiyyət strukturlarına rəhbərlik etməyə başladılar. İndi kapitalist dövlətlərin rəhbərləri arxayın ola bilərdilər ki, nasist rəhbərliyinin əli ilə sovet bolşevizmini boğmaq üçün əllərinə fürsət düşdü. xarici milyonçu kapitalistlər qisasçı nasist partiyasını və Hitler Almaniyasını bol-bol maliyyə ilə təmin etməyə başladılar. Əvvəl-

əvvəl iqtisadiyyatı bərpa etmək adı ilə edilən maliyyə yardımları, getdikcə artaraq sürətli hərbiləşdirmə sənayesi yaradılmağa başlanıldı.

Böyük maliyyə köməyinə arxalanan nasistlər sosial zümrədən olan bütün alman xalqının iş əmsallarını və əmək haqqını yüksəltdilər. Hətta sadə insanlar olan, gecə-gündüz aşağı əmək haqqı ilə işləyən fəhlələrin də maaşı artırılırdı. Elə buna görə də çoxsaylı fəhlələr nasist partiyasına inanmağa başladılar. Lakin qeyd etmək lazımdır ki, Hitlerin seçkilərdə qələbəsi-bu, sadəcə bir mifdir, əfsanədir. Onu sadəcə ölkənin rəhbəri təyin etdilər, xarici kapitalist-milyonçular Almaniyanın siyasi səhnəsinə onun gətirilməsinə kömək etdilər. Tarixi həqiqət budur. Bunu xarici tarixçi alimlər də təsdiq edirlər.

Qısasçılıq əhval-ruhiyyəsi ilə hakimiyyətə gətirilən Hitler ilk gündən işğalçılıq və qəddarlıq siyasətinə başladı. Məlumdur ki, Veymar Respublikasının 3 prezidenti olub: F.Ebert (1919-1925); P.Qindenburq (1925-1934) və A.Hitler (1934-1945). Prezident F.Ebert milliyyətcə yəhudi idi. O, öləndə Münhen arxiyeskopu heç kilsə zəngini də çalmadı (16, s.33). Çünki yəhudiləri kütləvi şəkildə məhv etmək Hitlerin avantürist planı idi.

Hitler hakimiyyətə gələndə faktiki olaraq ölkədə ordu yox idi, lakin böyük maliyyə yardımı alan Hitler ölkədə sürərli hırbiləşdirmə-silahlandırma proqramını yüksək templə həyata keçirdi. Qısa müddətdə ordunun silahlanması 42 dəfə artdı (16, s.41). Belə güclü ordu isə təbii ki, müharibəni qaçılmaz edirdi.

Nəticə. Yeni müharibəyə başlamaq istiqamətində Münhen sövdələşməsi başlıca amillərdən biri oldu. Hitler bəhanə edərək bu sazişlə kifayətlənməyi vəd etsə də, sonrakı tarixi hadisələr onun yalançı və riyakar olduğunu sübut etdi. Yəni az sonra 1939-cu ilin martında Hitler orduları Çexoslovakiyanı akula kimi uddu. Hitlerin bu hərəkətləri dünyanın gözü qarşısında baş verirdi. Həqiqəti demək lazımdır ki, Hitlerin bu hərəkətinə yeganə ölkə kimi Sovet hakimiyyəti etiraz etdi. Lakin dünya ölkələrinin susqunluğu və ya bitərəf mövqe tutması ilə Hitler tam arxayınlaşdı və beləliklə, dünyaya hakim olması iddiaları ilə dağıdıcı müharibəyə başladı...

ƏDƏBİYYAT

1. Heydər Əliyev. Azərbaycan XXI əsrin və üçünü minilliyin ayrıcında. B., 2001, 55s.
2. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Üçüncü kitab, B., 1997, 597s.
3. Azərbaycan tarixi. 7 cilddə. 7-ci cild. B., 2003, 626s.
4. Azərbaycan tarixi. Ali məktəblər üçün mühazirə kursu. B., 2010, ASE, 544s.
5. Azərbaycan Sovet Ensiklopediyası. On cilddə. 2-ci cild. B., 1977, 592s.
6. Nuru Məmmədov. Azərbaycan İkinci dünya müharibəsi dövründə. Bax: Azərbaycan tarixi, Bakı, 2010
7. Q.Orucov Azərbaycan Qafqaz döyüşlərində. B., 1984
8. Siyasi tarix. 2-ci hissə. B., 1998, 381s.
9. Sovet İttifaqı Kommunist Partiyasının tarixi. B., 1972, 497s.
10. А.И.Балашов, Г.П.Рудаков. История Великой Отечественной войны. Санкт-Петербург, Питер, 2005, 464 с.
11. Великая отечественная война (1941-1945гг.). Энциклопедия. М., 1985, 791s.
12. Великая отечественная. История Великой Победы. (1941-1945 гг.) М.: Animi Fort, 2005, 736 с.
13. Йорг Баберевский. Красный террор. История сталинизма. М.: РОССПЭН, 2007, 279с.
14. Юрий Горьков. Государственный Комитет Обороны постановляет (1941-1945гг.). М., Олма-Пресс», 2002, 575с.
15. Лев Безыменский. Сталин и Гитлер. Перед схваткой. М.: «Яуза», 2009, 480с.
16. Николай Стариков. Кто заставил Гитлера напасть на Сталину. М.: Изд., «Питер»,2009, 545s.
17. Олег Вишлёв. Сталин и Гитлер. Кто кого обманул. М.: «Эскимо», 2010, 272с.
18. İnternet saytı. В.В.Путин. Кто заставил Гитлера напасть на СССР. Bax: 15 fevral 2020-ci il
19. İnternet saytı. Алексей Плотников. Русские тайны. XX век. Вторая мировая война. 14 марта 2020 г.

20. İnternet saytı. Леонид Млечин. Рождение новой мировой войны. Версальский мирный договор. 17 июня 2020г.
21. Рейман М. (Берлин) Рождение державы. История советского союза с 1917-по 1945 год. М.: РОСПЭН, 2015, 839с.

НУРУ МАМЕДОВ
Профессор кафедры истории Азербайджана (для гуманитарных факультетов) Бакинского Государственного Университета, доктор исторических наук

КТО НАЧАЛ ВОЙНУ, ГИТЛЕР ИЛИ СТАЛИН
(Тайны раскрыты, историческая правда раскрывается новыми фактами)

В статье объективно объясняются и исследуются на основе новых официальных документов причины начала Второй мировой войны и Великой Отечественной войны. Конкретные факты и официальные документы свидетельствуют о том, что войну начали нацисты и фашистская Германия. Накануне войны, в период осложнения международной обстановки, в 1930-е годы приход к власти Гитлера, предоставление крупных сумм финансовой помощи США и Англией создали благоприятные условия для осуществления быстрого осуществления программу милитаризации Германии и, как следствие, создание мощных военно-промышленных комплексов. Высокомерные заявления Гитлера сделали войну неизбежной. Даже мирные предложения СССР по созданию системы коллективной безопасности против фашизма были отвергнуты. Таким образом, исследования и анализы, особенно официальные документы, доказывают, что войну начала именно гитлеровская Германия.

Ключевые слова: Германия, Гитлер, Сталин, война, нацисты, фашизм, договор, официальные документы.

NURU MAMEDOV
Professor of the Department of History of Azerbaijan (for humanities faculties) of Baku State University, doctor of historical sciences

WHO STARTED THE WAR, HITLER OR STALIN
(Secrets are revealed, historical truth is revealed with new facts)

In the article, the causes of the outbreak of the Second World War and the Great Patriotic War are objectively explained and investigated with new official documents. Concrete facts and official documents state that the war was started by Nazis, fascist Germany. On the eve of the war, at a time when the international situation was complicated in the 1930s, the bringing of Hitler to power, the provision of large amounts of financial aid by the United States and England created favorable conditions for the implementation of a rapid militarization program in Germany and thus the creation of powerful military industrial complexes. Hitler's arrogant claims made war inevitable. Even the USSR's peaceful proposals to create a collective security system against fascism were rejected. Thus, research and analysis, especially official documents, prove that it was Hitler's Germany that started the war.

Keywords: Germany, Hitler, Stalin, war, Nazis, fascism, contract, official documents.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 25 aprel 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 may 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Azad Rzayev, t.e.d. İbrahim Zeynalov.